**Tərtər, Bərdə və Ağdam rayonlarının ərazisində aparılan fitosanitar monitorinqlərə dair məlumat**

**(4 noyabr 2023)**

Tədbirlər çərçivəsində Agentliyin əməkdaşları tərəfindən ixrac potensiallı məhsullar olan xurma və nar bağlarında geniş miqyaslı monitorinqlər aparılıb.

Monitorinqlər zamanı Tərtər rayonunun Bəyimsarov, Düyərli, Qaraağacı, Ələsgərli kəndlərində 52 ha, Bərdə rayonunun Otuzikilər, Cəyirli, Hacallı, Qaradağlı, Qaradəmirçi, Kətəlparaq kəndlərində 34 ha, Ağdam rayonunun Xındırıstan, Əfətli, Qaradağlı kəndlərində 23 ha xurma və nar bağında sirayətlənmə əlamətləri olan meyvələrdən nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq sınaq laboratoriyasına təqdim edilib. Aparılan müayinələr nəticəsində hər hansı zərərli orqanizm aşkarlanmayıb.

Bununla yanaşı, Qarabağ regional bölməsinin ərazisində Qəhvəyi mərmər bağacığı ilə bağlı mütəmadi olaraq monitorinqlər aparılır, feromon tələlər asılır. Monitorinqlər zamanı zərərvericinin yayılmadığı müəyyən olunub.